# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 150** **Bakı şəhəri, 25 may 2021-ci il**

**Azərbaycan Respublikasının ərazisində dövlət vəsaitləri hesabına maliyyələşdirilən tikinti obyektləri üçün yeni smeta-normativ və qiymətqoyma sisteminin və onun əsasında qiymətqoymanın resurs metodunun tətbiq olunması ilə əlaqədar bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, dövlət vəsaitləri hesabına maliyyələşdirilən tikinti obyektlərinin dəyərinin cari smeta qiymətləri ilə müəyyən edilməsi üçün resurs metodunun tətbiq edilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazir-liyinin Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə razılaşdırılmış təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Tikintidə üstəlik xərclərin normativləri” təsdiq edilsin (1 nömrəli əlavə).

**2.** “Tikintidə smeta gəlirinin normativləri” təsdiq edilsin (2 nömrəli əlavə).

**3.** “Tikilməkdə olan müəssisələrin və digər obyektlərin müdiriyyətinin (texniki nəzarətin) saxlanılması xərclərinin smeta normativləri” təsdiq edilsin (3 nömrəli əlavə).

**4.** “Nəzərdə tutulmamış işlər və xərclər üzrə ehtiyat vəsaitinin səviyyəsinin müəyyənləşdirilməsi üçün normativlər” təsdiq edilsin (4 nömrəli əlavə).

**5.** “Müəllif nəzarəti üzrə vəsaitin miqdarının təyin edilməsi üçün normativlər” təsdiq edilsin (5 nömrəli əlavə).

**6.** “Küləyin təsiri ilə əlaqədar olan xərclərin təyin edilməsi üçün normativlər” təsdiq edilsin (6 nömrəli əlavə).

**7.** “Müvəqqəti bina və qurğuların tikintisi üzrə sərflərin smeta normaları toplusu” təsdiq edilsin (7 nömrəli əlavə).

**8.** “Tikinti-quraşdırma işlərinin qış vaxtında yerinə yetirilməsi ilə əlaqədar olan əlavə xərclərin smeta normaları toplusu” təsdiq edilsin (8 nömrəli əlavə).

**9.** Bu Qərarla təsdiq edilmiş normativ sənədlərin dövlət vəsaitləri hesabına maliyyələşdirilən tikinti obyektləri üçün yeni smeta-normativ və qiymətqoyma sisteminin və onun əsasında qiymətqoymanın resurs metodunun tətbiqi ilə əlaqədar təsdiq olunan aidiyyəti metodiki sənədlərlə birlikdə istifadə edilməsi nəzərə alınsın.

**10.** Bu Qərar 2021-ci il oktyabrın 1-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının***
***Baş naziri***